# Həftəlik *Bülleten*



**132**
**6 Mart 2026**

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Gəncə Cümə məscidində təmir-bərpa işlərinə 1,6 milyon manat ayrıldı - SƏRƏNCAM**

Gəncə şəhərində yerləşən Cümə məscidində təmir-bərpa işlərinin layihə-smeta sənədlərinin hazırlanması və həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə ilkin olaraq 1,6 milyon (bir milyon altı yüz min) manat vəsait ayrılıb.

Prezident İlham Əliyev bu barədə Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Azərbaycan Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.



**Dövlət Şəhərsalma və Arxitektura Komitəsində kollegiya iclası olub.**

Məlumata görə, tədbirdə çıxış edən qurumun sədri Anar Quliyev bildirib ki, ölkə üzrə normativ bazanın və standartların təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülüb, ümumi və baş planların hazırlanmasında yeni yanaşmalar tətbiq edilib, müasir layihələndirmə üsullarının və texnologiyalarının tətbiqinə başlanılıb, şəhərsalma nəzarəti mexanizmi yaradılıb və şəhərlərin tarix-memarlıq mühitinin qorunması istiqamətində bir çox ardıcıl tədbirlər və islahatlar baş tutub. Bu günə qədər ölkə üzrə 79 şəhərdən 67-nin Baş planı təsdiq olunub və qalan şəhərlərin planlarının yenilənməsi üzrə işlər davam edir. Sədr ərazi planlaşdırma sənədlərinin hazırlanması zamanı tarixi-mədəni irsin qorunması, müasir memarlıq həlləri ilə uzlaşdırılması, nəqliyyat infrastrukturunun modernləşdirilməsi, ictimai nəqliyyat və piyada mühitinin inkişafı, yaşıl zonaların ərazisinin genişləndirilməsi, sosial infrastrukturun planlı yerləşdirilməsi, "ağıllı şəhər" texnologiyalarının tətbiqi istiqamətində görülən işlərə xüsusi diqqət çəkib. Qarabağ və Şərqi Zəngəzurdakı 12 şəhərdən 8-nin Baş planı artıq təsdiqlənib. Komitənin əsas icraçı qurumlardan olduğu ölkə Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Böyük Qayıdışa dair Dövlət Proqramı" çərçivəsində 100-dən çox şəhər və kəndin ərazi planlaşdırılması sənədləri təsdiq edilib. Şəhərsalma fəaliyyətinin rəqəmsallaşdırılması məqsədilə dövlət başçısının müvafiq Fərmanına əsasən elektron müraciət sistemi (e-tikinti) yaradılıb. Hazırda tikinti və istismara icazələrin alınması, fərdi yaşayış evləri ilə bağlı prosedurlar tam elektron qaydada aparılır.



**Ev tikmək istəyənlərin nəzərinə: Hansı qaydaları bilmək lazımdır?**

Qeyri-rəsmi məlumatlara görə, Azərbaycanda təqribən 400-500 min sənədsiz və ya sənədləşdirilməsi mümkün olmayan fərdi yaşayış sahəsi mövcuddur.

Bu məsələ fərdi yaşayış evlərinin qanunvericiliyə uyğun şəkildə necə tikilməsinin aktuallığını artırır.

Bir çox hallarda vətəndaşlar ev tikintisi zamanı hansı tələblərə riayət edilməli olduğunu bilmirlər. Bəs fərdi ev tikmək üçün hara müraciət olunmalıdır? Bunun üçün icazə tələb edilirmi? Daşınmaz əmlak eksperti Elnur Azadovun sözlərinə görə, hündürlüyü 12 metrədək olan fərdi yaşayış evlərinin tikintisi üçün xüsusi icazə alınmasına ehtiyac yoxdur. Ölkədə fəaliyyət göstərən layihə və smeta bürolarına müraciət etməklə vətəndaşlar istifadələrində olan torpaq sahəsinə dair sənədləri təqdim edirlər.

"Normativlərə uyğun olaraq evin eskiz layihəsi hazırlanır və aidiyyəti qurumlar tərəfindən təsdiq edildikdən sonra vətəndaş tikinti prosesinə başlaya bilər", - deyə ekspert bildirib.



**Bu il Xocavənd şəhərində 792 ev təmir ediləcək.**

2026-cı ildə Xocavənd şəhərində 792 evin təmir edilməsi planlaşdırılır.

"Report"un Xocavəndə ezam edilmiş əməkdaşı xəbər verir ki, bunu Prezidentin izi ilə rayona təşkil olunan mediatur çərçivəsində jurnalistlərə açıqlamasında Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Fidan Məmmədli deyib. Onun sözlərinə görə, ərazisi 1,51 min kvadrat kilometr, əhalisinin sayı isə 12,5 min nəfər olan Xocavənd rayonu ərazisində 1 şəhər, 2 qəsəbə və 80 kənd var: "Xocavənd rayonu işğaldan azad edildikdən sonra burada yenidənqurma və bərpa işləri sürətlə davam etdirilir. Xocavənddə 980 fərdi ev mövcuddur. Onlardan da 133-ü yararsız, 847-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 55-i artıq istismara hazırdır. Bu il ərzində daha 792 ev təmir ediləcək". Əməkdaş əlavə edib ki, Böyük Qayıdış proramına uyğun olaraq, Xocavənd rayonu ərazisinə yerli sakinlərin qayıdışına ötən ilin sentyabr ayından başlanılıb: "Bu vaxta qədər Xocavənd şəhəri də daxil olmaqla, beş yaşayış məntəqəsinə əhalinin qayıdışı həyata keçirilib. Xocavənd şəhərinə 194 nəfərdən ibarət 50 ailə, Hadrut qəsəbəsinə 233 nəfərdən ibarət 58 ailə, Sos kəndinə 360 nəfərdən ibarət 85 ailə, Qırmızı Bazar qəsəbəsinə 604 nəfərdən ibarət 142 ailə, Xocavənd kəndinə isə 94 nəfərdən ibarət 20 ailə olmaqla ümumilikdə 355 ailə (1485 nəfər) qayıdıb".



**Hörmətli sahibkarlar,**

Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının (ATMİA) təşkilatçılığı ilə aprel ayında Danimarkanın Maturix şirkəti ilə onlayn vebinar keçiriləcək. Vebinar çərçivəsində Maturix şirkətinin mütəxəssisləri tərəfindən tikinti və istehsalat proseslərində istifadə olunan betonun vəziyyəti haqqında məlumatların toplanması, analizi və qiymətləndirilməsini təmin edən intellektual simsiz sensor həlləri və onların tətbiqi barədə təqdimat ediləcək. Tədbir tikinti materialları istehsalçıları, tikinti şirkətləri və bu sahədə fəaliyyət göstərən mütəxəssislər üçün faydalı məlumatların əldə olunması və innovativ texnologiyalarla tanışlıq baxımından əhəmiyyətli olacaq.
Vebinarda iştirak etmək üçün aşağıdakı link vasitəsilə qeydiyyatdan keçə bilərsiniz:
https://docs.google.com/forms/d/e/1FAIpQLSei2QilFcne50d4ob0ef80wfhZaQ9jcdezMYs4NJFKcoTcSHg/viewform

**Sərginin adı: DESIGN SHANGHAI 2026**

**Tarixlər: 12-15 mart 2026-cı il,**

**Məkan: Şanxay Sərgi Mərkəzi (SEC) , Şanxay (Çin)**

Çin Beynəlxalq Dizayn Sərgisi. Qlobal brendlərin və uzaqgörən dizaynerlərin müstəsna dizaynlarını kəşf edin, maarifləndirici forumlarda və zirvə görüşlərində iştirak edin və özünüzü valehedici xüsusiyyətlərə və instalyasiyalara qərq edin.

**Sərginin adı: HAUS | BAU | ENERGIE - RADOLFZELL 2026**

**Tarixlər: 14-15 mart 2026-cı il,**

**Məkan: Milchwerk Radolfzell, Radolfzell (Almaniya)**

Bizimlə siz həssas dizayn, yüksək keyfiyyətli materiallar, müasir formalar və təzə rənglər, eləcə də istiləşmə və ya soyutma izolyasiyası tapa bilərsiniz.

**Sərginin adı: RAKSA - CONSTRUCTION 2026**

**Tarixlər: 13-15 mart 2026-cı il,**

**Məkan: Lahti İdman və Ticarət Sərgisi Mərkəzi, Lahti (Finlandiya)**

Beynəlxalq Tikinti Sənayesi Ticarət Sərgisi. Raksa Finlandiyada tikinti və təmir üçün ən populyar tədbirdir

**Sərginin adı: XIAMEN STONE FAIR 2026**

**Tarixlər: 16-19 mart 2026-cı il,**

**Məkan: Xiamen Beynəlxalq Konfrans və Sərgi Mərkəzi, Xiamen (Çin)**

Beynəlxalq Təbii Daş Sərgisi. Qranit, mərmər, əhəng daşı, qumdaşı, şifer, lavaş, süni daş, sinterlənmiş daş, Mədən və emal avadanlıqları, çəngəl yükləmə maşını...

**Qoruq ərazisindəki 2 ev təmir ediləcək - 422 MİNLİK TENDER**

Dövlət Turizm Agentliyi (VÖEN – 1404365471) açıq tender elan edir.
Tenderin predmeti "Lahıc" Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində olan 2 fərdi yaşayış evinin bərpa və gücləndirilməsi işlərinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Mehman Bayramov - Sektor müdiri
Email: mehman.bayramov@tourism.gov.az
Əlaqə telefonu: +994 12 505 87 04 (2302)



**Azərbaycanda bəzi şəxslərin evləri pulsuz təmir olunacaq – TENDER**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Mənzil İstismar Departamenti (VÖEN – 1300390531) açıq tender elan edir.
Tenderin predmeti Biləsuvar rayonunda salınmış məcburi köçkün qəsəbələrində fərdi yaşayış evlərinin təmiridir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov - Sektor müdiri
Email: fariz.abbasov@idp.gov.az
Əlaqə telefonu: +994 12 430 15 30



**"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"Əsaslı Tikinti Və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Tenderin predmeti Gədəbəy rayon Heydər Əliyev Mərkəzinin cari təmir işləri ilə bağlı xidmətinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Murad Mirzəxanlı, Baş mütəxəssis
Email: tender@culture.gov.az
Əlaqə telefonu: +994 12 565 01 47



**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi açıq tender elan edir.
Tenderin predmeti Dövlət Turizm Agentliyi tərəfindən Xocavənd rayonu, Tuğ kəndi ərazisində yerləşən "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğu ərazisində tikinti və yenidənqurma işlərinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Mehman Bayramov, Sektor müdiri
Email: mehman.bayramov@tourism.gov.az
Əlaqə telefonu: +994 12 505 87 04 (2302)



**AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI TENDER ELAN EDİR.**

Azərbaycan Respublikasının Mərkəzi Bankı açıq tender elan edir. Tenderin predmeti Mərkəzi Bankın inzibati binalarında istismar olunan su, kanalizasiya, isitmə-soyutma, havalandırma sistemləri və avadanlıqları üçün ehtiyat hissələrinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Abdulla Böyükkişiyev, Böyük mütəxəssis
Email: Abdulla_Boyukkishiyev@cbar.az
Əlaqə telefonu: +994 10 239 23 80





**www.atmia.az**